Naxçıvan MR – 100

# NDU-da yubiley müsabiqə-festivalı



**Naxçıvan Dövlət Universitetində (NDU) Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalı keçirilib.**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən festivalla bağlı tədbirdə universitetin prorektoru Rafiq Rəhimov bu kimi müsabiqələrin önəmindən bəhs edib.

Tədbirdə onlarla tələbə musiqi, bədii qiraət və rəqqaslıq üzrə öz bacarığını nümayiş etdirib. Onların arasından ən istedadlı olanların seçilməsi münsiflər heyətinin üzvləri – Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Xalq artisti Təranə Muradova, Əməkdar incəsənət xadimləri Baba Vəziroğlu, Hafiz Quliyev və Azərbyacan Milli Konservatoriyasının müəllimi Arslan Növrəsliyə həvalə olunub.

Müsabiqənin sonunda münsiflər öz təklif və tövsiyələrini verdikdən sonra tələbələrə uğurlar arzulayıblar. Qeyd edək ki, festival qaliblərinin yekun konserti may ayında keçiriləcək.

Sonra festival çərçivəsində universitetin elmi kitabxanasında Əməkdar incəsənət xadimi Baba Vəziroğlu ilə görüş olub. Görüşdə universitetin prorektoru Arzu Abdullayev nasir, şair, tərcüməçi, kinodramaturq Baba Vəziroğlunun yaradıcılığı haqda danışıb. Diskussiya formatında davam edən görüşdə Baba Vəziroğlu müəllim və tələbələrin suallarını cavablandırıb. Şairin öz şeirlərini söyləməsi maraqla dinlənilib.

Azərbaycan Dövlət Akademik opera və balet teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev universitetin incəsənət fakültəsinin tələbələri və teatr studiyasının üzvləri ilə görüşündə teatr, operetta sənəti, xarici ölkələrdə Azərbaycan operasının səhnəyə qoyulması haqqında iştirakçılara məlumat verib.

Xalq artisti Təranə Muradova və Milli Konservatoriyanın müəllimi Arslan Növrəsli isə NDU Musiqi Kollecinin tələbələrinə ustad dərsi keçiblər. Tədbirdə tələbələrin musiqi və rəqs bacarıqları qiymətləndirilib. Milli rəqslərimiz haqda danışan, dünya ölkələrində Azərbaycan incəsənətini və mədəniyyətini özünəməxsus ustalıqla və incəliklə təmsil edən Təranə Muradova tələbələrə ənənəvi geyimlərimiz barədə də məlumat verib.

**XQ**